**UOT 78.03**
**https://doi.org/10.59849/2311-8482.2024.1.273**

**SOLMAZ AXUNDOVA***

# SERGEY RAXMANİNOVUN FORTEPİANO YARADICILIĞI

*Raxmaninov XX əsr musiqi incəsənətinin görkəmli nümayəndələrindən biridir. Raxmaninov dərin milli bəstəkardır. O həm dahi pianoçu, bəstəkar, dirijordur. Rus musiqisini müxtəlif etaplarda rus simvolizmi ilə inkişaf etdirir. Raxmaninov yaradıcılığı rəngarəngdir. O müxtəlif janrlarda musiqi yazırdı: opera, simfonik əsərlər, kantata və romanslar. Amma onun yaradıcılığında əsas yeri fortepiano musiqisi tutur. Rus musiqi tarixində simfonik yaradıcılığı da az əhəmiyyət kəsb etmir.*
***Açar sözlər:*** *Rus, musiqi, bəstəkar, milli, konsert*

## Giriş

Raxmaninovun yaradıcılığı müxtəlifdir. O, ayrı-ayrı janrlarda musiqi bəstələyirdi: opera, simfonik əsərlər, kantatalar, romanslar. Onun yaradıcılığında əsas yeri fortepiano musiqisi tutur.

Fortepiano musiqisi də bəstəkar tərəfindən müxtəlif janr variantlarında yaradılırdı. Kamera fortepiano üslubunda yeni ənənələrini inkişaf etdirən Raxmaninov fortepiano konserti janrında böyük bədii nəticələr əldə etdi.

## Əsas təhlil

Yüksək milli ənənələrə bağlı olan dahi pianoçu, ifaçı Raxmaninovun incəsənəti əsil yaradıcılıqdır. Onun ifasında hər şey sadə, təbii, melodikdir. Melodiya hər şeyin başında durur, dəqiq ritm, canlı dinamika, dolğun rənglər Raxmaninov ifasından xəbər verir. Dinləyici bu ifaya həm bədii, həm yaradıcılıq tərəfdən məftun olur. Onun ifası həmişə təntənəlidir, öz nəhəng texnikası və virtuozluğu ilə obrazların açılmağına xidmət edir.

Peterburq konservatoriyasına qəbul olunan Raxmaninov 1885-ci ildə Zilotinin məsləhəti ilə Moskva konservatoriyasına dəyişilir. 1891-ci ildə fortepiano sinfi üzrə bitirir. Konservatoriya dövründə yazdığı ən yaxşı əsərlər: "Aleko" və Birinci konserti.

İlhamla yazdığı İkinci konsert ehtiraslı hisslərlə, mübarizə və əzablarla doludur. Raxmaninov pianizmində onun dərindən hiss etdiyi təbiət həyəcanlandırır. O öz əsərlərini məğrurcasına ifa edirdi.

Dörd konsertinin hər birində Raxmaninov istedadının ən yaxşı xüsusiyyətləri açılır. Özünə diqqəti cəlb edən odur ki, konsertlərin finalında optimistik musiqi səslənir. Raxmaninov musiqisində tez-tez faciəvi əhval-ruhiyyə səslənir ki, onun yaradıcılığında "faciə" xəttinin keçməsi fikri yaranır.

1903-cü ildə bəstəkar öz prelüdünü tamamlayır.

Həm pianoçu, həm dirijor kimi bir neçə xarici ölkəyə qastrollardan sonra Raxmaninov Amerika və Avropa ölkələrində məşhurlaşır. Onun hər çıxışı hadisə olur.

1918-ci ildə ailəsi ilə bərabər Amerikaya köçən Raxmaninov konsert fəaliyyətini artırır və tezliklə dahi rus musiqiçisi dünyanın birinci pianoçusu adını qazanır. Konsertlərində əsasən öz əsərlərini ifa edirdi. Solo proqramlarda prelüdləri, etüd-şəkilləri, Musiqili anları çalırdı.

İllər ötür, dahi pianoçunun şöhrəti daha da artır, o, yüksək professional artist nümunəsi olur.

Amerika, Fransa, İsveçrə - harada yaşamasından asılı olmayaraq, imkan dairəsində bütün gücünü qoyur ki, doğma rus təbiətini, Rusiyada qalan yaxın dostlarını əsərlərində yaşatsın. Doqquz il susan Raxmaninov nəhayət, Dördüncü konsertini sona çatdırır. Yenə də beşillik fasilədən sonra Raxmaninov öz əhəmiyyətli əsərlərindən olan "Paqanini mövzusunda rapsodiya"sını bəstələyir. 24 variasiyadan ibarət bu əsər fortepiano və orkestr üçün yazılır və bu Beşinci konserti də adlandırıla bilər.

Vətəndən ayrılmağının ağrısını xüsusilə ikinci dünya müharibəsi illərində hiss edən Raxmaninov cəbhədə baş verən itkilərə üzülür, azacıq da olsa qələbəyə sevinirdi.

Fortepiano musiqisi Raxmaninov yaradıcılığının ən vacib və geniş sahəsidir. Burada bəstəkarın istedadı tam açılır, ən parlaq əsərləri yaranır. Raxmaninov royal üçün həm iri həcmli, həm də kiçik həcmli əsərlər yazırdı. İri həcmli əsərlərə dörd konserti, Paqanini mövzusuna rapsodiyası, iki sonatası, iki məcmuə variasiyası aiddir. Kiçik həcmli əsərlərə isə birhissəli əsərlər: "Pyesa-fantaziya" əsər 3, "Salon pyesləri" əsər 10, musiqili anlar, prelüdlər, edtüd-şəkillər, özünün transkripsiya etdiyi şəxsi

romanslar.

Bu dövrün ən yaxşı əsərlərində gənc bəstəkarın fərdi yaradıcılıq xüsusiyyətləri üzə çıxır.

Do-diyez prelüdü kiçik formalı, əsərlər arasında ən əhəmiyyətli və yetkin nümunədir. Üçhissəli bu pyes ehtirasla doludur. Birinci mövzu ciddi və qüssəlidir:

İkinci hissədə inkişaf edən dalğalar bir inkişaf xəttini yaradır: Akkordlar toplumu dinamik reprizaya gətirir:

Mi major melodiyasında Raxmaninov yaradıcılığının başqa tərəfi açılır-sonradan böyük inkişaf yolu keçən işıqlı romantik lirika Pyesa melodiyanın dayanmadan inkişaf edən zənginliyi ilə fərqlənir.

Altı musiqili anlar əsər 16 Raxmaninovun 90-cı illər fortepiano yaradıcılığını tamamlayır. Musiqili anlar özündə tez və ağır pyesləri cəmləşdirən məcmuədir. Bu əsərlərin musiqisinin çoxu həyəcanlı əhval-ruhiyyə ilə əhatə olunub:

Raxmaninovun yaradıcılığının mərkəzi dövründə onun fortepiano musiqisinin əsas janrları prelüdlər, etüd-şəkillər, konsertlər idi. Prelüdlər mətninin rəngarəngliyi ilə, bədii cəhətdən bitkinliyi ilə seçilir.

Prelüdiya si-bemol major-qəhrəmani, təntənəlidirsə, re-minor prelüdü menuet janrında yazılıb. Prelüdiyaya həyəcan, daxili ziddiyyət, psixoloji dərinlik xasdır. Prelüdün orta hissəsi-təmiz melodikdir:

Re-major prelüdü Raxmaninovun lirik peyzaj musiqisinin yaxşı nümunələrindən biridir:

Sol-major prelüdü-rus yay təbiətinin incə hisslərini əks etdirir. Pyesin rus mahnı elementləri zəngin olan musiqi dili, dərin milli özünəməxsusluğu ilə fərqlənir:

Si minor prelüdünün əsas mövzusu qüssəli, tutqun xarakterdədir. Melodiya minor ladı saxlamaqla daha aşağı registrlərə sürüşür:

Raxmaninovun etüd-şəkilləri etüd planında yox, bədii şəkildə yazılıb. Parlaq obrazlılıq, rəngarənglik, fortepiano fakturasının zənginliyi, monumentallıq – bu məcmuənin xarakter xüsusiyyətləridir.

Etüd – şəkillərin arasında mi-bemol minor lirikası olması ilə fərqlənir. Hisslərin açıqlığı, sərbəstlik və qəlb duyğuları orator pafosu ilə birləşir. Bu etüddə gücün və qəhrəmanlığın, azad insan şəxsiyyətinin, gözəllik düçüncəsinin izləri tərənnüm edilir.

Etüdün dayanmadan dalğalanan melodiyası bəstəkarın xoşbəxt ilhamlı anlarındandır. Oxuyan frazalarla ciddi frazalar bir-birini əvəz edir. Etüddə həmçinin harmoniya xüsusiyyətləri diqqətə layiqdir. Akkordlar qeyri-adi təzə və ifadəli səslənir.

Bütün bu harmonik üsullar musiqinin enerji və gərginliyini artırır, onun daxili güclü qəhrəmanlıq pafosunun hiss olunmağını tənzimləyir.

Raxmaninov yaradıcılığında etüd-şəkil, prelüdlərin bu janrlarda özünəməxsusluğu təsəvvür yaradır. Həm etüd-şəkillər, həm prelüdlər Raxmaninovun fortepiano üslubunun inkişafında daha güclü şəkildə konsert xarakteri yaradır.

Raxmaninov fakturası virtuoz xarakter daşıyır, bu ifaçı üçün böyük texniki çətinliklər yaradır. Raxmaninov musiqisində fortepiano virtuoz tərəfi bədii məzmunla sıx əlaqədardır.

Rus fortepiano konserti tarixində Raxmaninovun xüsusi əhəmiyyətli rolu var. Onun bu janrda yaratdığı əsərlər avropa musiqi incəsənətində yeni dövr açdı. Ən yaxşıları – İkinci, Üçüncü konsertləri, Paqanini mövzusunda Rapsodiya – dünya konsert ədəbiyyatının ən güclü əsərləri hesab olunur. Bethoven, Çaykovski, List və Bramsın konsertləri ilə eyni sırada durur.

Raxmaninov üslubunun formalaşmasında Çaykovskinin, Bethovenin, Listin konsertləri böyük rol oynayıblar. Raxmaninov konsert janrını simfoniyaya daha da yaxınlaşdırırdı.

Birinci konserti 1891-ci ildə 18 yaşlı gənc tərəfindən yazılıb. Konsertdə lirik yeniliklər, sehirli anlar, gizli şimşəkdən əvvəl atmosfer Raxmaninovun işinin nəticəsidir. O bu konserti sevirdi və uzun illər çalırdı. Konsertin əvvəlini diqqətlə dinləsək, bu başlanğıcın o biri konsertlərdə olmadığının şahidi olarıq. Gənclik konserti olduğu üçün başlanğıc sərbəstdir, onun harmonik və tembr həlləri impressionizmə meyliddir. Konsertdə rus musiqiçilərinin də təsiri hiss olunur, eyni zamanda Raxmaninov enerjisi yer alır. Həyəcanlı lirik tema sakitdir, bütövlükdə bu hissə keyfiyyətə görə bitmiş bir kompozisiyadır. 1917-ci ildə konsert yenidən nəşr olunur, əsas mövzunun materialı saxlanmaqla, onun inkişafı üçün bir sıra dəyişikliklər əhatə olunur. Fortepiano partiyasının fakturası zənginləşir.

Yeniləşmiş konserti bəstəkar öz konsert çıxışlarına daxil edirdi:

Raxmaninov İkinci fortepiano konsertini 1901-ci ildə tamamladı. Müəllifə şöhrət gətirən konsert Çaykovskinin si-bemol-minor konsertindən sonra ən yaxşı rus konserti kimi qəbul edildi. Raxmaninov konsertə çox yeniliklər də gətirdi. Həm quruluşda, həm musiqili ifadələrdə, həm janrın qoyuluşunda fortepiano və orkestr üçün lirik-poetik poema yaratdı. Raxmaninov lirizmi özünün dolğun, hərtərəfli rəngləri ilə, melodiyanın gözəlliyi ilə nümunəvi obrazlar yaradır.

Əvvəl ciddi və tutqun səslənən tema inkişaf zamanı daha yumşaq lirik rəngə çevrilir və indiyə qədər müşayiət rolunu yerinə yetirən fortepiano partiyasında davam etdirilir. Beləliklə, orkestrin tam susduğu halda fortepiano köməkçi temaya keçidi hazırlayır. Köməkçi partiyanın teması-xəyalpərvər, ehtiraslı, həyat doludur. Bəstəkar temanın yeni melodik davamını verir və tema sulu akkordlu fraza ilə solistə ötürülür:

İkinci hissə konsertin lirik mərkəzidir. Orkestrin giriş akkordları birinci hissədən ikinci hissəyə modulyasiyalı keçid edir. Rus lirik peyzajının işıqlı və poetik atmosferası hökm sürür:

Final əhatəli girişlə başlayır, bitən zaman isə tematik əlaqələrlə onun birinci hissə ilə bağlılığı meydana çıxır. Tema ikinci dəfə aparılan zaman, onun melodiyası daha geniş, çoxsaylı eniş və yoxuşlarla dolu olur.

İşlənmə gur və dramatik xarakterlidir, ritmik və harmonik kontrastlılıqlarla temp tezləşmələri ilə yadda qalır:

Böyük koda konserti bitirir.

İkinci konsert XX əsrin əvvəlində rus musiqi incəsənətində ən yadda qalan hadisədir. Raxmaninova xas olan lirik temalar onun yaradıcılıq üslubunun əsas xüsusiyyətləridir, onun üçün xarakterik olan melodiya konsertin ağır hissəsini təşkil edir.

İkinci konsert Raxmaninovun harmonik dili, dolğun rəngarəngliyi, harmoniyasının rus xarakteri haqqında parlaq təsəvvür yaradır. Obrazların əhəmiyyətli olması, əsas temaların inkişafı özünü ikinci konsertdə göstərir. Raxmaninov konsertlərinin finalı özündə skertso, xalq janrları, lirik elementləri birləşdirir.

Üçüncü konserti Raxmaninov polyak pianoçusu Lasif Qofama həsr edir. Drezdendə yaşadığı üç il ərzində konserti bəstələyir, bir neçə dəfə ifa edir. Konsertin üçüncü ifasında royal arxasında müəllif, dirijor pultu arxasında Qustav Maler dururdu. O zaman Raxmaninov rus musiqisinin əhəmiyyətli fiquru hesab olunurdu. Publika tərəfindən sevilən üçüncü konsertin əvvəli o birisi konsertlərdən fərqlənir. Birinci tema, Raxmaninovun özünün də qeyd etdiyi kimi kilsə musiqisinə bənzəyir^

Ağır hissə elə təsvir bağışlayır ki, gözlənilən, birinci hissə ilə eyni tonallıqda başlayır, lakin solistin girişi ilə özümüzü uzaq majorda hiss edirik. Konsertin ən yaxşı ifaçılarından olan Qarovitsin tarixi ifaları populyar olan ikinci konsertlə müqayisə olunurdu.

Ağır hissədə emosional amplituda daha artıqdır: eyforiyanın qığılcımları dəyişir, vals fraqmentində klarnet və faqotun passajlarında birinci hissənin teması keçir. Ağır hissəni fasiləsiz olaraq final əvəz edir. Onun əsas teması da yeni temanın qohumudur:

Üçüncü hissədə - nümunəvi virtuoz final, çətin və parlaq ifa Raxmaninov dəst-xəttində özünü göstərir. İnamlı enerji ilə ifa olunan konsertin finalı Raxmaninova xas olan dəqiq ritmlə yekunlaşır. Əsər boyu qeyd olunan ritmik fiqura, finalın əsas partiyasında yeni məna alır. Yalnız bağlayıcı partiyada hamar melodiya səslənir. İşləmədə musiqinin xarakteri gözlənilmədən dəyişir: kəskin temp dəyişir, səs koloriti, ritmik şəkillər kontrastlı olur. Sona yaxın, qısa xatırlatma kimi əvvəlki tema səslənir:

Konsert təntənəli sonluqla bitir.

Dördüncü konsert öz təzəliyi, melodik tapıntıları, genişliyi və gərginliyi ilə fərqlənir. Eyni zamanda, bəstəkarın yaradıcılığının xarici dövrə aid olan hissəsində yeni xüsusiyyətlərin yaranması nəzərə çarpır. Dördüncü konsert o birisilərə nisbətən çox təsadüfən ifa olunur:

Sovet dövrünün bəstəkarları bu konsertin vətəndən uzaqda yazılmasının əlamətlərini qeyd edirdilər ki, bu konsert də o birisilərin ənənələrini davam etdirir. Vətəni tərk edərək doqquz il müddətində Raxmaninov heç bir əsər bəstələmədi. Vətən həsrəti, onun çəkdiyi mənəvi əzablar, doğma torpaq ayrılığı bəstəkarı sıxırdı.

Nəhayət, 1926-cı ilin avqustunda Nikolay Karloviç Metnerə həsr etdiyi Dördüncü konsertini bitirdi.

1927-ci ildə Dördüncü konsertin (sol-minor əsər 40) Filadelfiyada premyerası oldu: solist müəllif özü, dirijor isə Stokovski idi. Əsərindən narazı olan bəstəkar publikanın da konserti soyuq qarşıladığını duydu. 1928-ci ildə partituraya düzəlişlər etdi, 1941-ci ildə isə konserti yenidən işlədi, onun yeni ikinci redaksiyasını yaratdı.

Vətəndən uzaq düşmüş bəstəkar bütün gücü ilə çalışırdı ki, vətəndən uzaqda öz yaradıcılığını bərpa etsin. Bu hisslər onun Dördüncü konsertində özünü biruzə verir, çünki, onu Rusiyada yazılmış əsərlərlə yan-yana qoymaq olmaz.

Dahi pianoçu, xüsusi istedada malik, müasirləri arasında ona bərabər olmayan, görkəmli dirijor-tənqidçilərdən birinin Raxmaninov haqqında dedikləri. Raxmaninov Çaykovskinin konsertini də, öz əsərlərini də çalarkən fikirləşirsən: bu adam ancaq fortepianoda çalmaq üçün yaranmışdır. Təsdiq etmək olar ki, Raxmaninovda güclü pianoçu istedadı olmasaydı, o fortepiano ədəbiyyatına belə parlaq xəzinə verə bilməzdi.

Raxmaninovun yaradıcılığında əsas yeri konsert janrı tutur, müasirləri arasında, yaradıcılıqları əsasən fortepiano musiqisi ilə bağlı olan (Skryabin, Metner) bu janrın elə də əhəmiyyəti yoxdur, necə ki, Raxmaninov üçün.

Raxmaninov həmişə ikifikirli olurdu, əgər musiqi bəstələyirdisə, pianoçu kimi az çıxış edirdi və ya əksinə. Bir dəfə belə bir suala cavab verdi: “Raxmaninov-pianoçu Raxmaninov-bəstəkar ziyan verirmi? Əlbəttə verir”. Eyni zamanda ifaçılıq fəaliyyəti onn yaradıcılığına stimul verir, Raxmaninov pianizmində bəstəkarlıq düşüncələri özünü göstərirdi. Asafyevin düzgün qeyd etdiyi kimi onun yaradıcılığı və interpretatorluğu bölünməz birlik təşkil ediridi.

Belə bir fikri təsdiqləmək olar ki, əgər Raxmaninov güclü pianoçu istedadına malik olmasaydı, fortepiano ədəbiyyatına belə zəngin və parlaq xəzinə verə bilməzdi. Dəmir ritmin həzinliklə birləşməsi, frazaların yapışdırılması, zəngin ə müxtəlif “registrovka” Raxmaninov-pianoçuya məxsus idi.

Konsert sahəsində - tənqidçi Jitomirskinin qeyd etdiyi kimi – adətən hissiyyatlı başlanğıc özünü daha dolğun göstərir.

Bu da onu göstərir ki, konsert fəaliyyəti fərdi artistliklə ayrılmazdır. Bu düşüncə ilə konsert anlayışını tək fortepiano ilə orkestr üçün yazılan kiçik həcmli əsərlərində eşidirik.

Vaxtı ilə populyar olan fortepiano pyesləri yüksək bədii nümunələri ilə yanası, müstəqilliyi və sərbəstliyi olan pyeslərə də rast gəlinir. Bu böümdən olan Barkarolanı yaxşı pyeslərdən hesab etmək olar. Ehtiraslı italyan barkarolalarından fərqli olaraq burada anlaşılmaz qəlb qüssəsi hiss olunur. Melodik səsin ritmik akkompanementdən asılı olması diqqəti cəlb edir.

Fortepiano üçün Fantaziyalar yazan bəstəkar ilk yaradıcılığındakı obrazlardan kənara çıxmır, burdakı obrazlar lirik-pyezaj xarakteri daşıyır. Bəstəkar yeni düşüncəsi, tapıntısı ilə melodiyanı müxtəlif registrlərdə, müxtəlif harmonizasiya ilə köməkçi pillələrdən istifadə edir.

İntonasiyalı inkişafın özəlliyi ondadır ki, çoxsaylı frazalar və mətnlər, musiqili-poetik obrazın yaranması, yeganə melodik mətnin variantı kimi qəbul edilir:

Hərtərəfli musiqi yaradıcılığı ilə Raxmaninov XIX əsr dahi rus bəstəkarlarının davamçısı kimi, demokratik milli ənənələrlə dolu incəsənətin həqiqətləri ilə xalqa müraciət edir.

Raxmaninov bizim yüzilliyin dahi pianoçusu kimi tanınmışdır, onun adı fortepiano ifaçılığı tarixində F.List və A.Rubinşteynlə yanaşı durur.

Raxmaninov həm də öz dövrünün ən görkəmli dirijorlarından biri kimi tanınırdı.

Raxmaninovun yaradıcılığı rus bədii mədəniyyətinin ən qiymətli hissəsidir: onun fortepiano, vokal və simfonik əsərləri klassik rus musiqisinin qızıl fonduna daxil edilmişdir və bu günə qədər öz bədii əhəmiyyətini qoruyub saxlamışdır.

Raxmaninovun dərin və qəlb musiqisi melodik zənginliyi ilə, gözəlliyi və təzəliyi ilə bəstəkarların yaradıcılığına təsir edir.

Raxmaninov öz ifası ilə dinləyiciləri məftun edirdi, çətin mübarizəyə ruhlandırırdı, dərindən həyəcanlandırırdı. Öz əsərlərini məğrur ifa edən bəstəkar elə bil ki, musiqiçilərə çağırış edirdi. Onun həssas barmaqları, onların klavişlərə toxunma manerası, o dövr musiqiçilərinin təəssüratında uzun illər yaşamışdır.

Çaykovski kimi Raxmaninov da həmişə insan həyatı, taleyi, ölümü haqda fikirləşir, bu düşüncələr onun müxtəlif əsərlərində yer alır.

İllər ötdükcə, dahi pianoçunun şöhrəti daha da artır. O yüksək, professional artist nümunəsidir.

Bütün müvəffəqiyyətlərə baxmayaraq hansısa bir hiss ona rahatlıq vermir. Nə ailə xoşbəxtliyi, nə auditoriyanın onu şahanə qəbul etməsi, yaşadığı yerlərdə vətəni xatırladan rus ağacları, çölləri, ocaqları olan peyzajlar onu vətən həsrəti çəkməkdən xilas etmir. Yaxın adamları, saysız-hesabsız dostları, Rusiyadan olan qohumları onun susqunluğunu aradan qaldıra bilmir. İllər ötür, doqquz ildən sonra o özündə güc tapır.

Böyük Vətən müharibəsi başlayanda Raxmaninov vətənlə əlaqə yaratmağa daha çox ehtiyac duydu. Konsertlərdən qazandığı böyük miqdarda pulları sovet konsulluğuna təqdim edir, doğma torpağa kömək etməyə can atırdı.

Doğma torpağın taleyi son illərinə qədər dahi rus musiqisini həyəcanlandırırdı. Raxmaninov seviləndir, onun vicdanı təmizdir, onun musiqisi həmişə səslənir. Konsertlərdə onun musiqisi gözəlliyi, obrazlılığı, hamının başa düşəcəyi dili ilə zövqləri oxşayır.

Raxmaninovun musiqi dilində Çaykovskidən gələn dramatizm, lirika, musiqili peyzaj, şübhəsiz öz kökləri ilə Rimski-Korsakov yaradıcılığına söykənir.

Raxmaninov opera yaradıcılığı XX əsrin əvvəli üçün tipik hesab olunur. Rus musiqi tarixində bəstəkarın simfonik yaradıcılığı da az əhəmiyyət kəsb etmir. Simfonik yaradıcılığında proqramlı əsərlərə də müraciət etmişdi.

1910-cu illərdə Raxmaninov yaradıcılığının bəzi tərəflərinin dərindən, hərtərəfli öyrənilməsi tələb olunur, əsasən bəstəkarın rus incəsənətində paralel ənənələrlə inkişaf edən yaradıcılıq münasibətləri sual doğurur.

Sonralar Raxmaninov mətbuatda çıxışında təsdiq edir ki, çoxlu görkəmli avropa bəstəkarlarının musiqisi ilə onun doğma ölkəsinin xalq musiqisi arasında sıx və yaxın əlaqə var. Melodiya-musiqinin əsasıdır, melos-ilham mənbəyi üçün təbii mənbədir. Raxmaninovun belə düşüncəsi həyatının son onilliklərində onun xüsusi yaradıcılığının hər bir sahəsində axır.

Raxmaninov harmoniyasının öyrənilməsinə bir sıra sovet musiqişünaslarının məqalələri həsr olunub.

Raxmaninovun musiqi üslubunda rus kilsə zənglərinin istifadəsi xüsusi yer tutur, musiqili tematizmin inkişaf üslubları dəyişir.

Raxmaninov yaradıcılığının bütün qollarını öyrənməkdən ötrü müasirlərinin bəstəkar haqqında xatirələri iki tomdan ibarətdir. Onların arasında Raxmaninovun canlı və hərtərəfli surətini yaradan A.Ossokovskini və Şaginyanı qeyd etmək olar.

Raxmaninov yaradıcılığı haqqında çoxlu sovet musiqişünasları da yazırdılar: B.Asafyev, V.Protopopov, D.Jitomirski, A.Alekseyev, T.Yivanova və başqaları.

Bəstəkar haqqında yazılmış son geniş kitablardan biri də Y.Keldışın yazdığı "Raxmaninov və onun zamanı" kitabıdır.

Maraqlı yaradıcılıq görüşləri və ünsiyyətləri bütün ömrü boyu onu müşayiət edirdi.

XX əsrin əvvəlində çoxlu istedadlı ifaçılarla görüşləri, bu arada Raxmaninovun Şalyapinlə yüksək qiymətləndirdiyi birliyi və yaradıcılıq dostluğunu qeyd etmək olar. Şalyapin yazırdı: o məni elementar musiqi qaydaları, harmoniya ilə tanış etdi.

**Nəticə**

Xarakterdə, həyata baxışda olan böyük fərqə baxmayaraq, Raxmaninov R.Metnerlə də dostluq əlaqələri saxlayırdı. Zəmanəsinin dahi pianoçusu, dirijoru kimi yadda qalan dahi rus bəstəkarı Raxmaninov, onun qızıl fonda daxil olan əsərləri ölməzdir. Gözəl musiqisi-istər fortepiano, istər vokal yaradıcılığı həmişə musiqiçilərə böyük təsir bağışlayacaq.

## ƏDƏBİYYAT

1. Е.Орлова. Очерки о русских композиторох XIX-начала XX века Москва «Музыка», 1982, 162 s.
2. Rus musiqi ədəbiyyatı III buraxılış. «Издательство Музыка». Лелинград, 1967, 182-184 s.
3. Rus musiqi ədəbiyyatı IV buraxılış. Лелинград «Музыка», 1985, 181-220 s.
4. Л.Энтелис. Силуэты композиторов XX века Издательство «Музыка», 1975, 167-175 s.

5. Б.Асафьев. О музыке ХХ века Лелинград «Музыка», 1982, 31-56 s.
6. У.Keldış. "Raxmaninov və onun zamanı". «Музыка» Москва, 1983, 58-76 s.
7. Böyük rus ensiklopediyası. Moskva 1992
***Naxçıvan Dövlət Universiteti**
***Azərbaycan Respublikasının Əməkdar müəllimi, dosent***
***E-mail:akhundova@gmail.com***

**Solmaz Akhundova**

**FORTEPIANO CREATION BY SERGEY RACHMANINOV**

Rachmaninov was one of the outstanding representatives of the musical art of the 20th century. Rachmaninov is a deeply national composer.

He is a brilliant pianist, composer, conductor who develops Russian music with Russian symbolism at various stages in a variety of ways. He wrote music in various genres: operas, symphonic works, cantatas, romances. But the main place in creativity is occupied by music for piano. The composer's symphonic work is of considerable importance in the history of Russian music.

**Keywords:** *Russian, music, composer, national, concert.*

**Солмаз Ахундова**

**ФОРТЕПИАНО ТВОРЕНИЕ СЕРГЕЯ РАХМАНИНОВА**

Рахманинов явился одним из выдающихся представителей музыкального искусства XX века. Рахманинов – композитор глубоко национальный.

Он гениальный пианист, композитор, дирижор который развивает русскую музыку с русским символизмом на различных этапах разнаобразно. Он писал музыку в развичных жанрах: оперы, симфонические произведения, кантаты, романсы. Но главное место в творчестве занимает музыка для фортепиано. Немалое значеение в истории русской музыки имеет симфоническое творчество композитора.

**Ключевые слова:** *Русский, музыка, композитор, национальный, концерт.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 04.02.2024**
**Son daxilolma tarixi:06.03.2024**